Ömərlə bir qutu macəra

# Uluqbəy

Vural Kaya

Gəncliyə Yardım Fondu

YTB

T.C. KÜLTÜR VE TURİZM BAKANLIĞI
YURTDIŞI TÜRKLER VE AKRABA TOPLULUKLAR BAŞKANLIĞI

Bu kitab, Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqraba İcmalar İdarəsi (YTB) və Gəncliyə Yardım Fondunun (GYF) iş birliyi ilə həyata keçirilən "Hər Uşaq Bir Çinardır" layihəsi çərçivəsində hazırlanmışdır.

Kitabın Orjinal Adı:
Uluğ Bey

Müəlliflər:
Vural Kaya & Betülnur Aybegüm Taslı & Dilara Sevgili

Azərbaycanda Nəşrə Hazırlayan:
Dr. Abbas Qurbanov

Anadolu Türkcəsindən Azərbaycan Türkcəsinə uyğunlaşdıran:
Mehriban Əbdürrəhimova

Redaktor:
Əziz Sultan

Rəssam:
Thukaa Kebriteh

Dizayner:
Ali Kocabıyık
Nicat Qəribov

**Bu kitabın ilk nəşri Kaşif Çocuk Yayınları tərəfindən həyata keçirilmişdir.**

**Kitabın səsli versiyasını www.usaqkitabi.az saytından dinləyə bilərsiniz.**

Bakı-2022; İpəkyolu Nəşriyyatı: 324-078
İSBN: 978-605-80184-0-2

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16
Tel: (+994 12) 492 14 38
Mobil: (+994 51) 412 22 82
Web sayt: www.ipekyolunesriyyati.az
Elektron poçt:  ipekyoluneshriyyati@gmail.com

## HÖRMƏTLİ OXUCU,

"Rəhbər Elm Adamları" silsilə kitabları, etdiyi ixtiralarla və ya kəşflərə verdiyi dəstəklə elm tarixinə işıq tutan alimlərimizi tanıtmaq məqsədilə hazırlanmışdır.

Alimlərin, ixtiraların və texnoloji inkişaf mərhələsinin uşaqlar, yeniyetmələr və gənclər üzərində daim müsbət təsiri olmuşdur. Bu səbəblə də alimlərimizin həyatlarını macəralı bir həyatın içində göstərməyə çalışdıq.

Hekayənin qəhrəmanı Ömər, babasının evinin çardağında tapdığı sirli qutunu açaraq oradan çıxan xəritədəki ulduza toxunur. Qutunun macərası ilə keçmişə səyahət edən Ömər, o anda ən parlaq ulduzun olduğu yerə gedir.

Həmin bölgədə yaşamış və bütün dünyada kəşfləri ilə məşhur olmuş alimin tədqiqat mühitində qonaq olur. Ömər onu qonaq edən alimin kəşfləri və elm dünyasına qazandırdıqlarını yaxından tanımaq imkanı əldə edir.

Macəra ilə dolu bu sirli səyahətində qəhrəmanımız çox əhəmiyyətli məlumatlar öyrənərək evə qayıdır və özünü çox xoşbəxt hiss edir.

**READƏR – YƏNİ QABAQCIL ELM ADAMLARI DƏRNƏYİ** tərəfindən hazırlanan bu layihə böyük bir heyət tərəfindən icra olunur.

Məqsədimiz elm tariximizdə zəhməti olan böyük insanları bütün dünyaya və gələcək nəsillərə tanıtmaq, yaxşı işlər görən insanları daim yaşatmaqdır.

Yaxşı oxuyan, oxuduqca fəallaşan, bəşəriyyətin xeyirli və məziyyətli gələcəyi üçün elmi tədqiqatla məşğul olan və elm həvəskarı gənclər olmağınız təmənnası ilə.

**XOŞ MÜTALİƏLƏR.**



ULUQ BƏY






Həftə sonları qəsəbəmizdə vaxt keçirməyi çox sevirdim. Xüsusilə günəşli havalarda ağaclara çıxıb budaqdan-budağa tullanırdım və ya dostlarımla başqa oyunlar oynayırdım. Bu həftə sonu hava yağmurlu olduğu üçün bütün günü evdə oturacaq olmağım kefimi pozmuşdu. Kitab şkafından elmi jurnal götürüb oxumağa başlamışdım ki, atam məni çağırdı. Dərhal yanına getdim. Mənə, hazırlaş gəzməyə gedəcəyik – deyəndə çox sevindim. Sürətlə hazırlaşdım. Atamla birlikdə gəzintiyə çıxmaq mənə zövq verirdi. **ATAM, BİRLİKDƏ ELM MUZEYİNƏ GEDƏCƏYİMİZİ DEYƏNDƏ SANKİ DÜNYALAR MƏNİM OLDU.** Eksponatlarla təchiz edilmiş, mədəniyyət, tarix və bilik xəzinəsi sayılan muzeylərə getməyi çox sevirəm. Məktəbdə müəllimlərimiz vaxtaşırı bizi muzeyə aparırlar. **BU GÜN İSƏ ELM MUZEYİNƏ GEDƏCƏYİM ÜÇÜN ÇOX HƏYƏCANLIYDIM.**



MUZEYƏ ÇATANDA TƏƏCCÜBLƏNDİM. ÇÜNKİ BURA DAHA ƏVVƏL GETDİYİM MUZEYLƏRƏ HEÇ BƏNZƏMİRDİ. Böyük bir astronomiya mərkəzinə gəlmişdik. Astronomiya mərkəzində böyük teleskoplarla əldə edilmiş görüntülərə baxdıq və kosmos barədə film izlədik. Rəqəmsal texnologiya sayəsində göy cisimlərini yaxından tədqiq etdik. Mərkəzdə olduğumuz müddət ərzində musiqi və effektlərlə bəzədilmiş fəza nümayişlərinə şahidlik etdik. MUZEYDƏN ÇIXANDA ATAM MƏNƏ BİR SÜRPRİZİNİN OLDUĞUNU DEDİ. Sözün düzü belə bir şeyi heç gözləmirdim, çünki muzey gəzintimiz də mənim üçün böyük bir sürpriz idi. Mərkəzin yanındakı mağazaya girdik. Atam mənə bir teleskop aldı. O anda hiss etdiyim sevinci ifadə etmək mümkün deyil. O qədər çox sevindim ki, mağazadan çıxanda özümü uçacaq kimi hiss etdim. BU GÖZƏL HƏDİYYƏYƏ GÖRƏ ATAMI QUCAQLADIM.



Yağış bir az azalmışdı. Evə gedəndə yağışın tez kəsilməyini istəyirdim. Axşama buludlar çəkilərsə, teleskopla doyunca aya və ulduzlara baxmaq istəyirdim. Bəlkə də təbiətşünaslıq dərsində öyrəndiyimiz planetləri də görə bilərdim. Şam yeməyindən sonra ilk işim çardağa çıxıb pəncərədən göyə



baxmaq oldu. Yağış hələ kəsilməmişdi. Deməli, teleskopla göyü müşahidə macəramı bir müddət təxirə salacaqdım. Teleskopu təəssüf hissi ilə dolaba qoyub aşağıya düşmək istəyirdim. Elə bu vaxt ulduzlu qutudan "tıq" səsi eşidildi. Qutunun yanına yaxınlaşdım və diz çöküb həyəcanla gözləməyə



başladım.

Qutunu açdım və ulduzun xəritənin hansı bölgəsində parıldayacağını gözləməyə başladım.

Diqqətlə xəritəyə baxırdım və ulduzun ilk parıldadığı anı görmək istəyirdim.

İlk parıldamağı gördüyüm anda sevincimdən atılıb-düşməyə başladım. **TÜRKİYƏNİN UZAQ ŞƏRQİNDƏ BİR ULDUZ PAR-PAR PARILDAMAĞA BAŞLAMIŞDI.** Bu səyahət məni hər gün daha bilikli edir və daxilimdəki maraq hissini artırırdı.

Gözlərimi yumduğum zaman buludların arasından yer üzünə elə sürətlə enməyə başladım ki, bir anda ürəyimin həyəcanına qorxu da əlavə olurdu.

Amma yer üzünə yaxınlaşdıqca yanımda uçan quşları görüb rahatlandım. Ayaqlarım yavaşca torpaq yola dəyəndə böyük bir qapının qarşısındaydım.

Qapıda dayanan iki əsgər nizələrini çəkib mənə yol verdilər. Halbuki mən hələ içəriyə girib-girməyəcəyimə qərar



vermәmişdim. Qapı böyük bir bağçaya açılırdı. Ağacların arasından böyük bir ev görünürdü. Əynindә uzun bәzәkli paltarı, başında әmmamәsi olan yaşlı kişinin yanına getdim. Elә bil mәni gözlәyirdi. Tox bir sәslә mәni qarşıladı:

– Xoş gәldin, Ömәr. Uluqbәy sәni gözlәyir.

– Xoş gördük. Uluqbәy kimdir?

– İstәsәn bağçadan evә qәdәr olan yolda gedәrkәn sәnә Uluqbәy barәdә bir az mәlumat verәrәm.

– Çox sevinәrәm. Tәşәkkür edirәm.

**– MUHAMMƏD TARAĞAY, YƏNİ HÖKMDARIMIZ ƏMİR TEYMURUN QOYDUĞU ADLA ULUQBƏY 1394-CÜ İL MARTIN 22-DƏ CƏNUBİ AZƏRBAYCANIN SULTANİYƏ ŞƏHƏRİNDƏ DÜNYAYA GƏLİB.**

Atası Əmir Teymurun oğlu Şahrux, anası Gövhәr Şad xanımdır. Uşaqlıq illәrindә Uluqbәy çox yaxşı tәhsil alır. Biliyin nә qәdәr dәyәrli olduğunu, biliklә güclü oluna bilәcәyini hәlә kiçik yaşlarda qavramışdır. Əla sәviyyәdә **ƏRƏBCƏ** öyrәnir



ULUQBƏY RİYAZİYYATÇI, ASTRONOM VƏ EYNİ ZAMANDA DÖVLƏT BAŞÇISI OLUB



və **11 YAŞINDA QURANİ-KƏRİMİ ƏZBƏRLƏYİR.** Gənc yaşlarında onda **RİYAZİYYATA** qarşı rəğbət hissi oyanır. Sarayda riyaziyyat, məntiq və astronomiya dərsləri oxuyur. **1394 - 1405**-ci illərdə oxuduğu dərslər nəticəsində riyaziyyatda ən çətin mövzuların da öhdəsindən gəlir. Uluqbəy yaşıdlarından çox fərqliydi. Oyun və əyləncə onun üçün həmişə ikinci planda idi. O daha çox dövlət işləri və elmi çalışmalarla məşğul olurdu.

Öyrənmək onun üçün oyun kimiydi. Bilik onun üçün çox dəyərliydi. Babası Əmir **TEYMUR** 1404-cü ildə onu **SULTAN MƏHƏMMƏDİN** qızı **ÖGƏ BƏYİM** ilə evləndirir. Dövlət işlərinə olan marağını və əzmkarlığını nəzərə alan atası 1409-cu ildə Mavəraünnəhr bölgəsini idarə etməyi ona



tapşırır. Bu işinə 38 il davam edir. 16 yaşından başlayaraq şimal-qərbdə **CEYHUN ÇAYINDAN SOĞANAĞA** və **ŞİMAL-ŞƏRQ-DƏ ASPARAY ŞƏHƏRİNƏ** qədər böyük bir bölgənin əmiri və-zifəsini yerinə yetirir.

Dövləti idarə edərkən də elmi fəaliyyətlərini dayandır-madı. Onun dövründə Səmərqənd elm və incəsənətdə ən

RƏSƏDXANALARDA İSTİFADƏ OLUNAN RUBU-DAİRƏ KİMİ BƏZİ ALƏTLƏR ULUQBƏY TƏRƏFİNDƏN İXTİRA EDİLMİŞDİR.

1413-CÜ İLDƏ ATASININ YERİNƏ TÜRKÜSTAN VƏ MAVƏRAÜNNƏHR BÖLGƏLƏRİNİN ƏMİRİ OLDU. AMMA İDARƏÇİLİKDƏN ÇOX ELMLƏ MƏŞĞUL OLDU VƏ ELMƏ XİDMƏT EDƏN ALİM HÖKMDAR OLDU. "ELMİN HAKİM OLDUĞU BİR ÖLKƏDƏ ELMLƏ MƏŞĞUL OLMAĞI HÖKMDARLIQDAN ÜSTÜN TUTURAM", - DEYƏRƏK BUNU GÖZƏL BİR İFADƏ İLƏ DİLƏ GƏTİRDİ.

gözəl günlərini yaşayırdı. Elm onun üçün çox dəyərli olduğundan ətrafda olan ən yaxşı alimləri bir yerə topladı. Kitab oxumaq və alimlərlə söhbət etmək onun ən çox zövq aldığı işlərdəndi.

**SƏMƏRQƏNDDƏ BİR MƏDRƏSƏ VƏ RƏSƏDXANA TİKDİRDİ.** Rəsədxanaya alimlər topladı və tikintisində şəxsən özü də işləyərək divarlara göy cisimlərinin şəkillərini çəkdi.

Rəsədxananın idarə olunması o dövrün böyük alimlərinə həvalə edilmişdi. **BURSALI KADIZADƏ**, **ƏLİ QUŞÇU** və digər görkəmli alimlər onlardan bəziləri idi. 12 il davam edən müşahidələr nəticəsində "Zeyc Gürkani" və ya "Zeyc Cə-


TÜRK-İSLAM DÜNYASINDA
TƏQVİMLƏR 1800-CÜ İLLƏRƏ
QƏDƏR ULUQBƏYİN TƏRTİB
ETDİYİ ASTRONOMİK CƏDVƏLLƏRLƏ
HAZIRLANMIŞ VƏ BU TARİXDƏN
SONRA AVROPALILARIN TƏRTİB
ETDİYİ CƏDVƏLLƏR ƏSAS
GÖTÜRÜLMÜŞDÜR.




did Sultani" adlı əsər ərsəyə gəldi. Bu kitab bir neçə əsr Şərqdə və Qərbdə istifadə olunan qaynaq bir əsər oldu.

Budur, çatdıq, oğlan. Hesab edirəm ki, bu qısa yürüş ərzində Uluqbəy barədə bir çox məlumatı əldə etdin.

Səsimi çıxartmadan müdrik görünüşlü yaşlı kişiyə qulaq asırdım. Bağçadakı cığır qurtarmış, böyük evin həyətindəki hovuzun yanına çatmışdıq. İçəridə bir az əvvəl barəsində xeyli məlumat öyrəndiyim şəxsin məni gözlədiyi düşüncəsi məni həm həyəcanlandırmış, həm də narahat etmişdi. Ona necə müraciət edəcəyəm deyə fikirləşməyə başladım.

Yaxşısı budur ona **"HÖKMDARIM"** deyim. Sonra yadıma düşdü ki, o bir alimdir.

SƏMƏRQƏND RƏSƏDXANASI ULUQBƏYİN ƏN BÖYÜK ƏSƏRİDİR. **"ASTRONOMİYADA İNKİŞAF ETMƏYƏN BİR MİLLƏT, BÖYÜK MİLLƏT OLA BİLMƏZ!"** SÖZÜ ONUN RƏSƏDXANAYA VƏ BURADAKI FƏALİYYƏTLƏRƏ NECƏ ƏHƏMİYYƏT VERDİYİNİN SÜBUTUDUR. HƏMİN DÖVRDƏ ŞƏRQDƏ DƏ, QƏRBDƏ DƏ BU CÜR MÜKƏMMƏL RƏSƏDXANA YOX İDİ.



Astronomiya, riyaziyyat, məntiq, incəsənət və ədəbiyyat sahəsində gördüyü işləri fikirləşəndə yenə nə edəcəyimi bilmədim. Nəhayət, ona Uluqbəy deyə müraciət etməyə qərar verdim.

Qapıya çatanda bir nəfər qarşımıza gələrək bizə salam verdi. Sonra qarşımızda yeriyərək, "arxamca gəlin", – dedi. **UZUN BİR DƏHLİZƏ GİRƏRƏK YERİMƏYƏ BAŞLADIQ.** Yerə sərilmiş kilimlərin naxışlarından gözümü çəkə bilmirdim. Kilimlərin möhtəşəm naxışlarına heyran olmuşdum. Bu gözəlliklərə zərər verməkdən ehtiyat edərək barmaqlarımın ucunda yeriməyə başladım.





Bir tərəfdən də kilimdəki şəkillərə baxırdım. Dağlar, çaylar, ağaclar, quşlar, ceyranlar... Elə gözəl rənglənmiş, parlaq ilmələrlə toxunmuşdu ki, elə bil hamısı canlı idi. Dəhlizin axırındakı qapıya qədər beləcə yeridim.

ULUQBƏY QIRX İLƏ YAXIN HÖKMDARLIĞI DÖVRÜNDƏ RİYAZİYYAT VƏ ASTRONOMİYA ELMİNƏ BÖYÜK TÖHFƏLƏR VERDİ. SARAYINI BİR AKADEMİYAYA ÇEVİRDİ. O DÖVRDƏ MƏŞHUR OLAN 60-70 ALİMİ ORADA TOPLADI VƏ ONLARLA BİRGƏ ELMİ FƏALİYYƏTLƏRLƏ MƏŞĞUL OLDU.

Qapıdan keçəndə arxama baxdım, bayaqdan mənə məlumat verən Uluqbəyin ustadı və bizi müşayiət edən əsgərlər içəriyə girmədilər. Otaqdakı işıq əvvəl gözlərimi qamaşdırdı. Bir neçə addım atdım. İçəridə divanda oturan ağ saqqallı, ağ paltarlı şəxsin yanına yaxınlaşdım.

– XOŞ GƏLDİN, ÖMƏR.

– XOŞ GÖRDÜK SİZİ.

Uluqbəy ayağa duraraq əlini mənə uzatdı. Titrəyərək onun əlini sıxdım. Ona necə müraciət edəcəyimə hazırlaşsam da, həyəcandan qarşısında dilim tutulmuşdu.

Uluqbəy yanındakı boş yeri əli ilə mənə göstərdi. Mən oturanda xidmətçilərdən biri əlində məcməyi ilə otağa girdi. Məcməyidə olan ayranı əvvəl mənə, sonra Uluqbəyə uzatdı. Uluqbəy gülümsədi, ayranı işarə edərək, "Bu ayranın tərkibində çiçək mənşəli məhlul var, bir azdan qəribə hadisələr yaşaya bilərsən. Fikirləşirəm ki, bunu əvvəldən bilməyində xeyir var", – dedi. Elə ayranı içməyə başlayanda çox susadığımı hiss etdim. Sərin ayran xoşuma gəlmişdi. İçində sirli məhlul olduğunu bilərək içmək mənə güvən verdi.

Uluqbəyin yanında olmağın həyəcanını sovuşdura bilməmişdim və bütün bədənim əsirdi.

– **SƏN YAXŞI BİR UŞAQSAN, ÖMƏR. ELMLƏ MARAQLANMAĞIN ÇOX YAXŞIDIR. BURAYA GƏLMƏYİN MƏNİ ÇOX SEVİNDİRDİ.**

– **TƏŞƏKKÜR EDİRƏM. SİZİNLƏ TANIŞ OLA BİLMƏYİMƏ HƏLƏ DƏ İNANA BİLMİRƏM. BİLDİKLƏRİNİZİ MƏN DƏ ÖYRƏNMƏK İSTƏYİRƏM.** Özü də hamısını.

MARAĞA VƏ SƏMƏRQƏND RƏSƏDXANALARI TƏQİYÜDDİN ƏFƏNDİNİN 1577-Cİ İLDƏ İSTANBULDA QURDUĞU İLK OSMANLI RƏSƏDXANASI (İSLAM DÜNYASININ 3-CÜ BÖYÜK RƏSƏDXANASI) BAŞDA OLMAQLA XVIII ƏSRDƏ HİNDİSTANDA CAY SİNQH TƏRƏFİNDƏN DEHLİ VƏ CAYPUR ŞƏHƏRLƏRİNƏ QURULAN RƏSƏDXANALAR KİMİ, TİXO BRAHE VƏ KEPLER TƏRƏFİNDƏN QURULAN İLK AVROPA RƏSƏDXANALARI ÜÇÜN DƏ MODEL OLMUŞDUR.

Uluqbəy gülümsədi:

– Bilikli olmaq üçün çox oxumaq lazımdır. Göy üzü, planetlər və dünyamız həmişə mənim maraq dairəmdə olub. Günəşi tədqiq etdim, ayın hərəkətini izlədim və onların fəsillərə görə yer üzünə göstərdiyi təsirləri öyrənməyə çalışdım. Bütün bunlar çalışaraq əldə edilir, Ömər. Biliyin insanı ucaltdığını heç bir vaxt unutma.

– İNŞALLAH, MƏN DƏ SİZİN KİMİ BİLİKLİ OLARAM.

– Əlbəttə, ola bilərsən. Mənimlə yerini dəyişdirmək istəyirsən?

Bu suala çox təəccüblənmişdim. Bir an üçün özümü

Uluqbəyin yerinə qoydum. Dövlət əhəmiyyətli bir qərar qəbul etməyə məcbur olsam, nə edərdim? Və ya bir alim mənə astronomiya barədə sual versə nə cavab verərdim? Çaşbaş olmuşdum. Əmin olmaq üçün soruşdum:

– YƏNİ ULUQBƏY OLACAĞAM?

– BƏLİ, BƏLİ. BU SƏNİN ÜÇÜN ÇOX DA ÇƏTİN OLMAMALIDIR.

– Çox çətindir. Mən sizin qədər elmli deyiləm.

– Məni başa düşməyin, mənim kimi düşünməyin yeganə yolu budur. Bir az əvvəl içdiyin ayranın tərkibində bir çiçək məhlulu olduğunu demişdim. Bu tərkib səni, mənim biliyimə və fikirlərimə aparacaq. Bir müddət Uluqbəy olacaqsan. Bu, ixtiraçı uşaq olmaq istədiyin üçün sənə verilmiş bir mükafatdır.

Uluqbəyə qulaq asdıqca göz qapaqlarım ağırlaşmağa başladı. Başımı arxamdakı yastığa qoydum. Çox müqavimət göstərə bilmədim və gözlərim yumuldu.



– Uluqbəy! Uluqbəy!

**– YAXŞIYAM. YAXŞIYAM, NARAHAT OLMA.**

Elə bil televizorda özümə baxırdım. Amma Uluqbəyin


ULUQBƏYİN ƏLDƏ ETDİYİ ELMİ NAİLİYYƏTLƏR DÖVRÜMÜZDƏ DƏ ELM DÜNYASINA İŞIQ TUTMAQDADIR. QƏRB ALİMLƏRİ ONU "XV ƏSRİN ASTRONOMU" TİTULUYLA TƏLTİF ETMİŞDİR.

bildiklərini əldə etmişdim, onun kimi fikirləşə bilirdim.

Buxarada və Səmərqənddə iki mədrəsə tikdirmiş, onların ehtiyaclarını qarşılamaq üçün vəqflər təsis etmiş, mədrəsələrdə təhsilin çox uğurlu olması barədə xəbəri eşidib sevinmişdim.

Təəccüblə televizor kimi bir ekrandan özümü izləyirdim. Uluqbəyə, yəni mənə məlumat vermək üçün gələn vəzirlərlə növbə ilə söhbət edir, onlara dövlət işləri barədə göstərişlər verməyimi heyran-heyran seyr edirdim. Özümü çox əhəmiyyətli bir şəxs kimi hiss edirdim.

Özümü Uluqbəy adına qurulmuş mədrəsədə dərs verərkən gördüm. **HƏM DÖVLƏT İŞLƏRİ, HƏM DƏ ELM VƏ İNCƏSƏNƏTLƏ MƏŞĞUL OLUR, EYNİ ZAMANDA TƏHSİL MÜƏSSİSƏLƏRİ TİKDİRİR VƏ ÜSTƏLİK BURALARDA TƏLƏBƏLƏRƏ DƏRS VERİRƏM. AMAN ALLAHIM, MƏN NƏLƏRLƏ MƏŞĞUL OLURAM BELƏ?** Uluqbəy barədə öyrəndiyim hər məlumatla ona olan heyranlığım çoxalırdı. Onun kimi ola bilmək üçün çox



MƏRKƏZ QƏRARGAHI AMERİKADA OLAN BEYNƏLXALQ ASTRONOMİYA İTTİFAQI (INTERNATİONAL ASTRONOMİCAL UNİON) AYIN GÖRÜNƏN SƏTHİNİN BÖYÜK BİR HİSSƏSİNİ "ULUQBƏY KRATERİ" ADLANDIRIB.

çalışacağıma dair öz-özümə söz verdim.

Uluqbəyin astronomiyaya marağının kiçik yaşlarında başladığını öyrənmişdim. **MARAĞA RƏSƏDXANASINI** görmüşdüm və həyatım boyu bu yeri unutmayacaqdım.

Gözlərimi çətinliklə açdım. Qarşımda mənə gülümsünən Uluqbəyi görüb yerimdən sıçrayaraq onu qucaqladım.

**– ÖMƏR, DANIŞ GÖRÜM, ULUQBƏY OLMAQ NECƏ BİR HİSSDİR?**

– Uluqbəy, həyatınız boyu sizin gördüyünüz işlər heyranedici gözəllikdədir. Ölkəni idarə edərkən bir tərəfdən də xalqın maariflənməsi üçün məktəblər tikdirmisiniz. Oralarda dərs vermisiniz. Bildiklərinizi tələbələrinizlə bölüşmüsünüz. Öyrəndiklərinizi, təcrübələrinizi kitablaşdırıb gələcək nəsillərə də yol göstərmisiniz. Əminəm ki, sizin həyatınızı öyrənən hər gənc sizin kimi olmaq üçün çox çalışacaqdır.

BU GÜN TÜRKİYƏDƏKİ "KANDİLLİ" RƏSƏDXANASINDA HİCRİ-QƏMƏRİ AYLARIN HESABLANMASI ÜÇÜN HƏLƏ DƏ ULUQBƏYİN ƏSƏRİNDƏN İSTİFADƏ OLUNUR.



Uluqbəy gülümsədi. Şəfqətlə başımı oxşadı. Havanın qaralmağı səbəbilə ortaya çıxan Ayı barmağı ilə göstərib danışmağa davam etdi:

**– ÖMƏR, KAİNATDA MÖHTƏŞƏM BİR İNTİZAM VAR. İLMƏ-İLMƏ TOXUNAN GÖY ÜZÜNDƏ GÜNƏŞİN VƏ AYIN VARLIĞI DÜNYAMIZDA YAŞAYIŞI ƏLVERİŞLİ EDİR.**

– Canlıların yaşaması, fəsillərin əmələ gəlməsi kimi sadalaya biləcəyimiz bir çox hadisə Ayın hərəkətləri sayəsində meydana gəlir. Bu, dünyamızın yaşamağa əlverişli bir planet olması üçün toxunmuş milyardlarla ilmədən sadəcə biridir. Bilik bizim həyatımızı formalaşdıran ən

əhəmiyyətli amildir, oğlum. Elmli olsan, həyatın daha asan olar. Elm öyrənməyi əsla dayandırma və dostlarına da elmli olacaqları təqdirdə həyatlarının necə asan olacağını danış. Yaşadığın dövrə qayıdanda mənim elmimə varis ol.

**ULUQBƏYİN ELM VARİSİ OLMAQ TƏKLİFİ İLƏ FƏXR ETMİŞDİM. TAPŞIRILAN VƏZİFƏ ÇOX ƏHƏMİYYƏTLİYDİ.** Bu vəzifə üçün çox çalışmalıydım və öyrəndiklərimi başqalarına öyrətməliydim.

Ayın gözəlliyinə baxarkən gözlərim dumanlandı və yenidən buludların arasında süzülməyə başladım. Özümü yuxuda hiss edirdim.

**ÖZÜMƏ GƏLƏNDƏ OTAĞIMDA İDİM. GÖZLƏRİM ULUQBƏYİ AXTARDI. DEYƏSƏN, NÖVBƏTİ MACƏRAM DA BAŞA ÇATMIŞDI.**

Uluqbəy barədə o qədər çox məlumat öyrənmişdim ki, özümü çox xoşbəxt hesab edirdim. Çünki öyrəndiklərimi alimin özündən dinləmək fürsəti əldə etmişdim. Hətta özümü Uluqbəy kimi hiss etmiş, Uluqbəy kimi alim bir





nəfərin nəyə qadir olduğunu şəxsən onun yerinə keçərək öyrənmişdim.

Çardaqdakı qutu sayəsində məlumat əldə edərək yaşadığım macəraları fikirləşərkən yorğunluqdan yuxuya məğlub olan gözlərim qapandı.

**YUXUDA ULUQBƏYİN ELM VARİSİ KİMİ BİR RƏSƏDXANADA UŞAQLARA ASTRONOMİYA DƏRSİ KEÇİRDİM.**

## ÖZÜMÜ DƏYƏRLƏNDİRİRƏM

### A. AŞAĞIDAKI SUALLARA MÜVAFİQ CAVABLARI VERİN.

1. Ömərin Uluqbəy ilə qarşılaşmaq üçün çıxdığı zaman səyahətində ulduz hansı ölkənin üstündə parıldayırdı?

A) Mərakeş B) Azərbaycan
C) İspaniya D) Misir

2. Uluqbəy aşağıdakılardan hansı ilə yad edilir?

A) Uşaq həkimi B) Optik ustası
C) Astronomiya D) Səyyah

3. Aşağıdakı alətlərdən hansı Uluqbəy tərəfindən ixtira edilmişdi?

A) Rubu-dairə B) Eynək
C) Təkər D) Xətkeş

4. Uluqbəyin ən önəmli əsəri aşağıdakılardan hansıdır?

A) Əl-Qanunu Fit Tibb

B) Rihlətül-Uluqbəy

C) Zeyc Gürkani

D) Kitabul-Uluqbəy

I Astronomiya

II Riyaziyyat

III Coğrafiya

5. Yuxarıdakılardan hansı Uluqbəyin fəaliyyət göstərdiyi elm sahələrindəndir?

A) I və II

B) I və III

C) II və III

D) I, II və III

## B. AŞAĞIDA YAZILAN CÜMLƏLƏRDƏN DÜZ OLANLARIN ƏVVƏLİNƏ D, SƏHV OLANLARIN ƏVVƏLİNƏ S YAZAQ.

1. ( ) Uluqbəy Cənubi Azərbaycanda dünyaya gəlmişdir.

2. ( ) Uluqbəy astronomiya ilə əlaqəli ixtiralar etmişdir.

3. ( ) Uluqbəy Aristotel və Ptolomeyin əsərlərini tədqiq edərək səhvləri müəyyən etmişdir.

4. ( ) Uluqbəy səyahətə qarşı hiss etdiyi maraqla tanınmışdır.

5. ( ) Uluqbəy Qərb dünyası tərəfindən "XV əsrin astronomu" titulu ilə təltif edilmişdir.

## C. AŞAĞIDAKI SÖZLƏRİ MÜVAFİQ CAVABLA BİRLƏŞDİRƏK.

1. Uluqbəyin təsis etdiyi müşahidə evi.
2. Uluqbəyin ən önəmli əsəri.
3. Uluqbəyin babası.
4. Uluqbəyin birlikdə işlədiyi alim.
5. Uluqbəyin idarə etdiyi ərazi.

a. Əmir Teymur.
b. Səmərqənd rəsədxanası.
c. Əli Quşçu.
d. Mavəraünnəhr bölgəsi.
e. Zeyc Gürkani

## D. DÜŞÜNƏK VƏ YAZAQ.

1. Uluqbəyin elmi araşdırmaları dövrümüzdə nəyə ilham mənbəyi olmuşdur?

......................................................................................

......................................................................................

......................................................................................

2. Uluqbəylə tanış olsaydın, ona hansı sualları verərdin?

.....................................................................................

.....................................................................................

3. Uluqbəyi tərif edəcək üç cümlə qursaydın, bunlar necə olardı?

.....................................................................................

.....................................................................................

4. Uluqbəy rəsədxanada hansı fəaliyyətlərlə məşğul olub?

.....................................................................................

.....................................................................................

5. Astronom olsaydın, dünyaya hansı ixtira ilə adını eşitdirmək istəyərdin?

.....................................................................................

.....................................................................................